*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 07 (425)

15 aprel 2014-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# "BİZİM YOLUMUZ MÜSTƏQİLLİK, MİLLİ LƏYAQƏT, İNKİŞAF, TƏRƏQQİ YOLUDUR"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir. Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayının salonuna toplaşanlar – muxtar respublikanın hökumət nümayəndələri, elm, mədəniyyət və incəsənət xadimləri, ölkəmizdəki diplomatik korpusun, Naxçıvan ictimaiyyətinin nümayəndələri Prezident İlham Əliyevi hərarətlə qarşılamışlar.***



## Prezident İlham Əliyevin mərasimdəki nitqindən:

- Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün biz Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyini qeyd edirik. Bu gözəl hadisə münasibətilə Naxçıvan Muxtar Respublikasının bütün sakinlərini və eyni zamanda, bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Naxçıvan qədim Azərbaycan torpağıdır. Naxçıvanda tarixi abidələr, dini abidələr, memarlıq abidələri, bütün toponimlər Azərbaycan xalqına məxsusdur. Əsrlər boyu Azərbaycan xalqı bu gözəl diyarda yaşamış, yaratmışdır.

Naxçıvanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu Öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən, Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı.

Ulu Öndərin Azərbaycan tarixində rolu əvəzsizdir. Şəxsiyyətlərin tarixdə rolu haqqında çoxlu kitablar, elmi əsərlər yazılmışdır. Ulu Öndərin həyat və fəaliyyəti, onun siyasəti şəxsiyyətlərin tarixdə rolu haqqında kifayət qədər geniş material verir. Bu böyük şəxsiyyətin rolu o qədər əhəmiyyətli və dəyərlidir ki, bu gün müstəqil Azərbaycan dövləti Ulu Öndərin siyasəti, cəsarəti, uzaqgörənliyi sayəsində inkişaf edir, yaşayır.

Bizim müstəqilliyimiz ən böyük sərvətdir və hamımız yaxşı bilirik ki, XX əsrin əvvəllərində də Azərbaycan müstəqillik qazanmışdı. Ancaq biz o müstəqilliyi qoruya bilməmişdik. O müstəqilliyin ömrü müəyyən səbəblər üzündən uzun olmamışdır. Ancaq bu, reallıqdır və bundan da əlavə məhz o illərdə, müstəqillik illərində, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş qərara əsasən, bizim əzəli torpağımız olan İrəvan Ermənistana verilmişdir. Necə ki, ondan bir neçə il sonra bolşevik sovet hakimiyyəti Zəngəzuru ermənilərə vermişdir. Necə ki, ötən əsrin sonlarında Qarabağ işğal altına düşmüşdür. Görün, bizim xalqımız nə qədər böyük faciələr yaşamışdır. Ancaq buna baxmayaraq, xalqımızın iradəsi sınmamışdır. Buna baxmayaraq, Azərbaycan bu gün inamlı inkişaf dövrünü yaşayır. Bu gün güclü Azərbaycan bölgə üçün, region üçün sabitləşdirici rol oynayır. Mən tam əminəm ki, güclü Azərbaycan və güclənən Azərbaycan bizə öz ərazi bütövlüyümüzü bərpa etməyə və gələcəkdə bütün tarixi torpaqlarımıza qayıtmağa imkan verəcəkdir.

1993-cü ildən başlayaraq Azərbaycanda sabitlik, sürətli inkişaf dövrü yaşanır və müstəqilliyimizin banisi Heydər Əliyevin bu uğurlarda rolu əvəzsizdir.

Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda əlahiddə ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Yəni, bundan sonrakı illərdə də Naxçıvanın hərbi gücünün artırılması üçün əlavə tədbirlər görüləcəkdir.

Bir daha demək istəyirəm ki, bu uğurların təməlində Ulu Öndərin siyasəti dayanır. Biz, onun davamçıları bu siyasətə sadiqik. Artıq on bir ilə yaxındır ki, Ulu Öndər aramızda deyil. Ancaq onun ideyaları, siyasəti, siyasi xətti yaşayır. Azərbaycan inamla, uğurla inkişaf edir. Azərbaycan sözün əsl mənasında müstəqil dövlət kimi öz siyasətini aparır. Azərbaycan xalqı bu gün inkişaf edən Azərbaycanın timsalında müstəqilliyin üstünlüklərini əyani şəkildə görür. Müstəqillik ən böyük sərvətimizdir. Hətta inkişafımız olmasa idi, hətta ağır vəziyyətdə yaşasaydıq belə, yenə də azadlıq, müstəqillik hər şeydən üstündür. Ancaq biz nəinki müstəqil dövlətik, nəinki öz taleyimiz öz əlimizdədir və müstəqil siyasət aparırıq, biz uğurlu dövlətik. Biz böyük uğurlara imza atmışıq. Son on ilin nəticələri göz qabağındadır. Bu, statistikadır, bu, tarixdir, bu, reallıqdır. Son 10 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Cəmi 10 il ərzində iqtisadiyyat 3 dəfə artmışdır.

Azərbaycan bu gün bütün iqtisadi parametrlər üzrə ən qabaqcıl ölkələrlə eyni səviyyədədir, bəzi parametrlər üzrə inkişaf etmiş ölkələri də qabaqlayır. Bizim dövlət xarici borcumuz ümumi daxili məhsulun 8 faizini təşkil edir. Azərbaycanda böyük həcmdə valyuta ehtiyatları yaradılmışdır və ümumi daxili məhsulumuzun 70 faizini təşkil edir. Büdcə kəsiri çox aşağı səviyyədədir. İnfrastruktur layihələrinə qoyulan vəsait bu gün ölkəmizin hər bir yerində özünü göstərir, yeni imkanlar açır. Biznes imkanları da çox yaxşıdır. Azərbaycanda liberal iqtisadiyyat aparılır. Rəqabət qabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı dünyada 39-cu yerdədir.

Yəni, aparılan islahatlar, düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik bizim uğurlarımızı şərtləndirir. Son 10 ilin inkişafı onu göstərir ki, biz, Ulu Öndərin davamçıları onun bütün tapşırıqlarını şərəflə yerinə yetirmişik.

Siyasi islahatlar uğurla aparılır. Azərbaycanda azad cəmiyyət formalaşıbdır. Bütün azadlıqlar mövcuddur. Siyasi fəaliyyət azadlığı, mətbuat azadlığı, internet azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan azadlığı, bütün azadlıqlar vardır. Azərbaycan demokratik dövlətdir. Azərbaycan o dövlətdir ki, bu dövlətin inkişafını xalq müəyyən edir. Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas istiqamətdir, əsas yolumuzdur.

Yəni, bu gün Azərbaycan dövləti möhkəm təməl üzərində qurulubdur. Bu təməl tarixə, xalqımızın əsrlər boyu yaratdığı dəyərlərə söykənir. Milli ideologiyamıza söykənir ki, onun müəllifi Ulu Öndər Heydər Əliyevdir. Bu gün, eyni zamanda, bizim dövlətimiz möhkəm iqtisadi baza üzərində qurulubdur. İqtisadi müstəqillik siyasi müstəqilliyimiz üçün əsas şərtdir.

Azərbaycan bu gün dünya üçün çox önəmli tərəfdaşa çevrilibdir. Beynəlxalq nüfuzumuz artır. Dünya ictimaiyyəti bizi dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə bizə səs verməzdi. BMT Təhlükəsizlik Şurasının üzvü olmuşuq. Dünyanın ən mötəbər təşkilatı olan Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Bu il Avropa Şurasında sədrlik edəcəyik. Dünyada dostlarımızın, bizimlə əməkdaşlıq etmək istəyənlərin sayı artır. Yəni, budur bizim beynəlxalq nüfuzumuz. Beynəlxalq nüfuz, iqtisadi güc, hərbi potensial, sosial məsələlərin həlli, regional inkişaf proqramlarının uğurla icra edilməsi və prinsipial siyasət.

Hər bir məsələ ilə bağlı bizim prinsipial mövqeyimiz vardır. Azərbaycan hər bir beynəlxalq hadisə ilə bağlı öz prinsipial mövqeyini ifadə edir. Bu mövqe prinsiplər üzərində qurulubdur. Beynəlxalq hüquq və ədalət – bu iki prinsip hər bir ölkə üçün ən əsas prinsip olmalıdır. Bizim üçün bu, belədir. Bu gün Azərbaycanın dünyada artan hörməti, eyni zamanda, bizim prinsipial mövqeyimizdən qaynaqlanır. Bizim tərəfdaşlarımız bilirlər ki, Azərbaycan etibarlı tərəfdaşdır. Bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur.

Biz gələcəyə böyük ümidlərlə, nikbinliklə baxırıq. Bizim gələcəyimiz daha da gözəl olacaqdır. Sözün düzü, hesab edirəm ki, bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri - quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır. Bundan sonra Azərbaycanın, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvanın uğurlu, dinamik inkişafı təmin ediləcəkdir. Bu günədək görə bilmədiyimiz işləri görəcəyik. Görüləsi işlər vardır. Ancaq deyə bilərəm ki, xalqımızı narahat edən əsas sosial və iqtisadi məsələlərin böyük əksəriyyəti öz həllini tapmışdır. Biz inamla irəliyə gedirik. İrəliyə getmək üçün bizim yolumuz açıqdır. Bu yolun təməlini Ulu Öndər qoymuşdur. Bir daha demək istəyirəm ki, biz bu siyasətə sadiqik. Bizim yolumuz müstəqillik, milli ləyaqət, inkişaf, tərəqqi yoludur. Bizi bu yoldan heç kim döndərə bilməz.

# OMBUDSMAN APARATININ ƏMƏKDAŞLARI DAXİLİ QOŞUNLARDA ŞƏRAİTİ MÜSBƏT QİYMƏTLƏNDİRİB

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanovanın bir sıra nazirliklərin, həmçinin Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının rəhbərliyi ilə razılaşdırılmış plan-cədvəllərə müvafiq olaraq, Ombudsman Aparatının əməkdaşlarının həmin qurumların səlahiyyətli nümayəndələri ilə birgə hərbi hissələrə baş çəkmələri müntəzəm olaraq davam etdirilir.***

Ötən həftə Ombudsman Aparatının Hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və İşgəncələrin qarşısının alınması şöbəsinin əməkdaşı Vüqar Heydərov DQBİ-də mənəvi-psixoloji hazırlıq şöbəsinin rəis müavini mayor Yenibar Hətəmovla birgə DİN-in Daxili Qoşunlarının hərbi hissələrində, hospitalında və Ali Hərbi Məktəbində plan üzrə baxışlar keçiriblər.

Məqsəd hərbi qulluqçuların məişət şəraiti ilə tanış olmaq, onlarla rəftar qaydalarının və hissələrdə insan hüquqlarının müdafiəsi vəziyyətinin araşdırılması olub.

Hərbi hissələrdə bütün xidmət sahələri üzrə baxış keçirilib. Şəxsi heyətlə insan hüquqları, o cümlədən mövcud hərbi qanunvericilik və hərbi



nizamnamələr mövzusunda söhbətlər aparılıb, hərbi qulluqçuların hüquqları ilə bağlı çoxsaylı sualları cavablandırılıb. Ombudsman Aparatının əməkdaşları hərbi hissələrdə, o cümlədən hospitalda və Ali Hərbi Məktəbdə şəxsi heyət üçün yaradılmış şərait, habelə rəftar və qidalanmanın vəziyyətini, müalicənin keyfiyyətini müsbət qiymətləndirib. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, yaşayış şəraitinin, qidalanma vəziyyətinin və sağlamlığının təmininin normal səviyyədə təşkili müşahidə edilib.

Başçəkmə zamanı aparatın əməkdaşları 25031 saylı hərbi hissənin ərazisində zabit və gizir hərbi qulluqçular üçün inşa olunmuş 102 mənzilli, 12 mərtəbəli, müasir tələblərə cavab verən bina ilə də tanış olublar. Məlumat verilib ki, artıq son tamamlama işlərinin aparıldığı və yaxın günlərdə istifadəyə veriləcək binanın birinci mərtəbəsi hərbçi ailələrinin sosial-məişət şərai-



tinin yaxşılaşdırılması məqsədilə uşaq bağçası kimi fəaliyyət göstərəcək.

Ombudsman Aparatının əməkdaşları tərəfindən görülən işlərin daha da təkmilləşdirilməsi üçün rəhbər şəxslərə müvafiq tövsiyələr verilib.

2_Layout 1 12.04.2014 16:28 Page 1



# “ŞƏXSİ HEYƏT ÜÇÜN YARADILMIŞ HƏRTƏRƏFLİ ŞƏRAİT RESPUBLİKA PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVİN HƏRBİ QULLUQÇULARA GÖSTƏRDİYİ DİQQƏT VƏ QAYĞISININ NƏTİCƏSİDİR”

*Bu fikirləri Daxili Qoşunların Komandanı əsgər valideynləri ilə keçirdiyi görüşdə bildirib.*

**Aprelin 6-da Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov qoşunların 99713 saylı hərbi hissəsində olmuşdur.**



Daxili Qoşunların Komandanı şəxsi heyətin kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu və təminat-təhcizatı ilə yaxından tanış olmuş, ərazidə aparılan quruculuq-abadlıq işləri ilə maraqlanmışdır.

Hərbi hissə komandiri döyüş hazırlığının vəziyyəti, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji durumu barədə geniş məruzə etmişdir.

General-mayor Ş.Məmmədov həmin gün övladları ilə görüşə gələn əsgər valideynləri ilə görüşmüş, onların müraciətlərini dinləmişdir.

Əsgər valideynləri ilə görüşün təşkil olunmasında əsas məqsədin onların müraciət və təkliflərinin dinlənilməsi olduğunu vurğulayan Daxili Qoşunların Komandanı əvvəlcə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində həyata keçirilən məqsədyönlü islahatlar, habelə sabitliyin qorunub saxlanılmasında mühüm rol oynayan DİN-in Daxili Qoşunlarının əldə etdiyi nailiyyətlər barədə geniş məlumat vermişdir.

Qeyd etmişdir ki, hal-hazırda Daxili İşlər Nazirliyinin tərkib hissəsi olan Daxili Qoşunların şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə hərtərəfli şəraitə malik yaşayış komplekslərinin, yeni hərbi şəhərciklərin, əsgər kazarmalarının tikilib istifadəyə verilməsi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi qulluqçulara göstərdiyi diqqət və qayğısının nəticəsidir. Bütün bunlar gənclərimizin Vətənə layiqli övlad kimi formalaşması naminə həyata keçirilir.

Daxili Qoşunlarda övladları üçün yaradılmış hərtərəfli şəraitə görə əsgər valideynləri Respublika Prezidentinə, həmçinin Daxili İşlər Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirmişlər.

Görüşdən sonra Daxili Qoşunlar Komandanı əsgər valideynlərini fərdi qaydada da qəbul etmiş, onların arzu və istəklərinin yerinə yetirilməsi istiqamətində konkret göstərişlər vermiş, icrası mümkün olan məsələlər isə yerindəcə həllini tapmışdır.

**Mətbuat xidməti**

# GƏNC ƏSGƏRLƏRİN QƏBULU DAVAM EDİR

*Bu gün Azərbaycan Respublikasının Silahlı Qüvvələri Cənubi Qafqazın ən qüdrətli ordusudur. Əldə olunan bu uğurlar öz növbəsində gənclərimiz arasında hərbi vətənpərvərlik ruhunun yüksəlməsinə böyük təkan verir. Elə bunun nəticəsidir ki, gənclərimiz böyük həvəslə çağırış məntəqələrinə gəlir və Azərbaycan əsgəri olmaları ilə qürur duyurlar.*

**Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən, artıq aprel ayının 1-dən 18 yaşı tamam olmuş, habelə yaşı 35-dək olan Azərbaycan vətəndaşlarının növbəti həqiqi hərbi xidmətə çağırışı başlanmışdır.**







Bu proses Daxili Qoşunlarda da həyata keçirilməkdədir. Gənc çağırışçıların xidmətə qəbulu, bölmələrə yerləşdirilməsi və hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanması Daxili Qoşunlar Komandanlığın diqqət yetirdiyi ən vacib məsələlərdəndir. Qoşunların mətbuat xidmətinin zabiti kimi qəbul qaydalarının necə həyata keçirilməsini qələmə almaq məqsədilə 25031 saylı hərbi hissədə oldum.

Hərbi hissə komandiri polkovnik Zəfər Əliyev gənc çağırışçıların qəbulu və yerləşdirilməsi ilə bağlı geniş məlumat verdi. Bildirdi ki, Daxili İşlər Naziri cənab general-polkovnik Ramil Usubovun və Daxili Qoşunlar Komandanlığının diqqət və qayğısı nəticəsində hərbi hissədə hərtərəfli şərait yaradılıb. Bu baxımdan da gənc çağırışçıların qəbulunda və yerləşdirilməsində, eləcə də təminatında heç bir problem yoxdur.

Ümumiyyətlə, hərbi hissədə yaradılan şərait xidmətin yüksək səviyyədə təşkilinə, həmçinin qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə icra olunmasına tam imkan verir.

Çağırışçıların qoşunlara qəbul prosesini daha dərindən öyrənmək üçün qəbulun keçirildiyi məntəqəyə üz tutdum. Gənc çağırışçılar ilk olaraq onların müayinəsi məqsədilə yaradılmış tibbi-həkim komissiyasından keçirlər.

Seçim qrupunun üzvlərindən olan tibb xidməti polkovnik-leytenantı Malik Balayev çağırışçıların genişləndirilmiş tibbi müayinəsi haqqında ətraflı məlumat verdi. O, zəruri tibbi müayinələrin aparıldığını bildirdi: “Döş qəfəsinin rentgen flüoroqrafiya müayinəsi, fiziki inkişaf göstəriciləri (boyu, çəkisi) yoxlanılır. Bundan başqa, həkim-cərrah, həkim-psixonevroloq, həkim-terapevt, həkim-stomotoloq və digər ixtisaslı həkimlər tərəfindən baxış keçirilir. Çağırışçıların rentgenoloji və ultrasəs müayinələri də təşkil edilir. İlkin tibbi müayinədən keçərək praktiki sağlam hesab olunmuş çağırışçı hərbi xidmətə qəbul olunur. Bundan sonrakı mərhələdə çağırışçılar psixoloji testdən keçirlər”.

Çağırışçıların növbəti yoxlamaları Mənəvi-psixoloji hazırlıq şöbəsinin zabitləri tərəfindən aparılır. Bu zaman çağırışçılar fərdi söhbətlərə cəlb edilir və müvafiq testlər əsasında onların psixoloji durumu yoxlanılır. Test yoxlaması zamanı çağırışçıların dünyagörüşünə, hərbi xidmətə münasibətinə, şəxsi intizamı və işgüzar keyfiyyətlərinə, psixoloji dayanıqlığına daha çox diqqət yetirilir. Tələblərə cavab verən çağırışçılar xidmətə yararlı hesab olunurlar.

Ardınca xidmətə qəbul olunanlarla hamam tədbirləri keçirilir və hər biri ölçülərinə uyğun hərbi geyim forması ilə təmin olunurlar. Bölmələrə daxil olan çağırışçılar manqalara, taqımlara bölünürlər. Hərbi hissə komandirinin müvafiq əmrinin tələblərinə əsasən, gənc əsgərlər kursuna cəlb olunurlar. Artıq sıraya daxil edilən gənc əsgərlərin təsdiq edilmiş məşğələ cədvəli əsasında ilk hərbi biliklərə yiyələnmə dövrü başlayır. Adaptasiya dövründə gənc əsgərlərə əsasən ictimai-siyasi, sıra, fiziki, atəş hazırlığı məşğələləri tədris olunur. Təlim dövrü bitdikdən sonra gənc əsgərlər hərbi anda gətirilir. Təntənəli şəkildə keçirilən andiçmə mərasimindən sonra Vətənin sadiq hərbi qulluqçuları qoşunların Bakı və regionda yerləşən hərbi hissələrində xidmətə başlayırlar.

**Bundan sonra gənc əsgərlərin qarşısında bir vəzifə durur: Hərbi anda sadiqlik nümayiş etdirərək qarşıya qoyulmuş tapşırıqları keyfiyyətlə yerinə yetirmək!**

**baş leytenant T.Əlizadə**

***Müasir Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu prosesi, vətəndaş cəmiyyətinin formalaşması, əsaslı siyasi və iqtisadi islahatların həyata keçirilməsi, ölkəmizin dünyada etibarlı tərəfdaş kimi tanınması Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın milli ideya ətrafında birləşməsi və azərbaycançılıq ideologiyası Heydər Əliyev siyasətinin əsas istiqamətlərindəndir. Azərbaycan dilini, tarixini, mədəniyyətini və milli-mənəvi dəyərlərini qorumağı daim tövsiyə edən Heydər Əliyevin ideoloji əsaslarının tam şəkildə bərqərar olmasına baxmayaraq, bu işlərin vahid mərkəzdən istiqamətlənməsinə ehtiyac duyulurdu. Bu zərurətdən irəli gələrək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2006-cı il tarixli müvafiq sərəncamına əsasən, Bakı şəhərində Heydər Əliyev Mərkəzi yaradılmışdır.***

***İnşasına 2007-ci ildə başlanılmış mərkəzin binası 2012-ci il mayın 10-da, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümündə istifadəyə verilmişdir. Dünya memarlığının incilərindən sayılan Heydər Əliyev Mərkəzinin binası müasir Bakının rəmzlərindən biri hesab olunur.***

# ZABİTLƏRİMİZ HEYDƏR ƏLİYEV MƏRKƏZİNİ ZİYARƏT ETMİŞLƏR



Martın 15-də Daxili Qoşunların Baş İdarəsinin bir qrup zabiti Heydər Əliyev Mərkəzini ziyarət etmiş, burada Ulu Öndərə aid maraqlı faktlar, foto və video materiallar və digər ünikal eksponatlarla tanış olmuşlar.

Şəxsi heyətə məlumat verilmişdir ki, binanın layihəsinin müəllifi dünya şöhrətli memar, Pritzker memarlıq mükafatının sahibi Zaha Hadiddir. O, dünyanın bir sıra tikinti komplekslərinin arxitektur müəllifi kimi tanınır.

Mərkəzin binasının layihəsində düz xətlərdən istifadə olunmayıb. Binanın quruluşu - yerdən dalğavari şəkildə səmaya doğru yüksəlməsi, sonra isə süzülərək yenidən yerə qovuşması davamlılığı, sonsuzluğu təcəssüm etdirir. Binanın üzərindəki xətlər həm də keçmişlə gələcəyin bir-birinə bağlılığını yaradır.

Binanın inşası zamanı ümumi uzunluğu 90 km təşkil edən dəmir konstruksiyalardan şəbəkə qurulmuşdur. Sahəsi 40 000 m² olan dam örtüyündə hər biri fərqli ölçüdə və müxtəlif həndəsi fiqur- üçbucaq, düzbucaq, trapesiya, paraleloqram şəklində xüsusi tərkibli 12027 ədəd paneldən istifadə olunmuşdur.

Kompleksə əsas bina, yeraltı parkinq və park ərazisi daxildir. Ərazidə 2 dekorativ hovuz və süni göl var. Mərkəzin ümumi ərazisi 15,93 ha, tikinti sahəsi 101.801 m², park (landşaft ərazi) 13.58 ha, binanın zirvəsi isə 74.1 metrdir. Binanın ağ rəngdə olması aydın gələcəyi simvolizə etməklə yanaşı, həm də buradakı xüsusi elementləri nəzərə çarpdırmaq məqsədi daşıyır.

**Əsas bina 3 bölmədən ibarətdir:**

*- Heydər Əliyev Muzeyi bölməsi.*

*- Sərgi zalları bölməsi (sərgi salonları, inzibati ofis və kafe yerləşir).*

*- Audiorium bölməsi (2 konfrans zalı, görüş və toplantı otaqları, media mərkəzi yerləşir).*

Heydər Əliyev irsinin araşdırılması, təbliği və fondlarda qorunması istiqamətində fəaliyyət göstərən Mərkəzin ən cəlbedici və maraq doğuran bölümü Heydər Əliyev Muzeyidir. Muzey Azərbaycan tarixinin və Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dönəmlərini əks etdirir. Burada toplanan məlumatlar ziyarətçilərə interaktiv formada çatdırılır. Üç mərtəbədən ibarət muzeydə Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığını əks etdirən zəngin materiallar mövcuddur.

Ümumiyyətlə, mərkəz Ulu Öndərin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin öyrənilməsi, Heydər Əliyev irsinin tədqiqi və təbliği, həmçinin Azərbaycan tarixi və mədəniyyətinin, Azərbaycan dilinin və digər milli-mənəvi sərvətlərinin beynəlxalq aləmdə tanıdılmasına böyük imkanlar açır. Eyni zamanda, mərkəz dünya mədəniyyətinin, müxtəlif sivilizasiya nümunələrinin Azərbaycanda tanıdılması, yerli, regional və beynəlxalq konfrans, simpozium və digər tədbirlərin keçirilməsi istiqamətində fəaliyyət göstərir.

**Mətbuat xidməti**

# KOMANDAMIZ ATICILIQ ÜZRƏ YARIŞDA BİRİNCİ OLDU

Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin təşəbbüsü ilə 02-04 aprel 2014-cü il tarixlərdə daxili işlər orqan və hissələri arasında atıcılıq üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilmişdir. Yarışda Daxili Qoşunların yığma komandası 6 idmançı və 1 nümayəndə heyəti ilə təmsil olunmuşdur.

3 gün davam edən yarışlarda PM tipli tapançadan PM-1 tapşırığı üzrə kişilər arasında Ali Hərbi Məktəbin hərbi qulluqçusu kursant Bəşirov Tamerlan Mirniyaz oğlu, qadınlar arasında isə 99713 saylı hərbi hissənin hərbi qulluqçusu gizir Əhmədova Təranə Hicran qızı 1-ci (birinci) yerə layiq görülmüşlər.

Bundan əlavə, gizir T.Əhmədova PM-5 tapşırığı üzrə 2-ci yeri, AKM avtomatından tapşırıqlar üzrə isə AHM-in kursantı Orucov Polad Ramazan oğlu 3-cü yeri tutmuşdur.

**Ümumilikdə isə Daxili Qoşunların yığma komandası 1-ci yerə layiq görülmüşdür.**

Bu qələbə münasibətilə komandamızı ürəkdən təbrik edir və onlara gələcək yarışlarda da birinciliyi əldən verməməyi arzulayırıq!

**“Əsgər”**

***Ötən günlərdə Daxili Qoşunların hərbi hissələrində ay ərzində görülmüş işlərə yekun vurulmuşdur. Yekunda bir çox məsələlərin müzakirəsi ilə yanaşı, ay ərzində daha yüksək nəticə göstərmiş bölüklər müəyyən olunmuşdur.***



# KOMENDANT BÖLÜYÜ QALİBLƏR SIRASINDADIR

25031 saylı hərbi hissədə qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində ön sıralarda yer tutan bölmələrdən biri də Komendant bölüyüdür.

Komendant bölüyündə xidmət edən şəxsi heyətin bir sıra vacib tələblərə cavab verməsi başlıca şərtdir. Xidmətə cəlb olunan hərbi qulluqçu çeviklik, ayıq-sayıqlıq və psixoloji dayanıqlıq kimi xüsusiyyətləri özündə cəmləşdirməyi bacarmalıdır. Yüksək fiziki göstəricilərə və atəş hazırlığına malik olmaq isə onun əsas keyfiyyətləridir.

Bölük komandiri (VİE) leytenant Mehman Əsgərov xidmətin təşkili, şəxsi heyətin hazırlığı barədə məlumat verdi. Qeyd etdi ki, qarovul xidmətinə cəlb olunan taqım bir gün öncə müəyyən olunur. Nəzəri hazırlıq zamanı onlara Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin bütün tələbləri çatdırılır. Həmçinin vəzifə borclarından irəli gələn müddəalar (xidmət aparacaqları postlarda yerli şəraitin qiymətləndirilməsi, ayıq-sayıqlıq, diqqəti yayındırmamaq və s.) dərindən izah edilir. Şəxsi heyətin tibbi müayinəsinə də ciddi diqqət yetirilir. Hazırlıq müddəti başa çatdıqdan sonra hərbi qulluqçular praktiki olaraq təlimat məşğələsinə cəlb olunurlar. Onlar təyin olunmuş yerdə düzülür və silahlanırlar. Şəxsi heyət bölük komandirinin məruzəsi əsasında hərbi hissə komandirinə təqdim olunur və yoxlanılır. Hərbi hissənin komandirinin əmrindən sonra şəxsi heyət xidməti qəbul edir.

Qarovul şəhərciyində fəallarla tərbiyə söhbətləri aparılır, onların mənəvi-psixoloji durumu öyrənilir. Bundan başqa, xidmətin aparılma qaydası, ən əsası təhlükəsizlik qaydalarına ciddi riayət olunması izah edilir. Qarovul nəfərlərinin postdan qayıtdıqdan sonra vaxtlı-vaxtında istirahət etməsi, asudə vaxtının səmərəli təşkili diqqət mərkəzində saxlanılır.

Leytenant M.Əsgərov əlavə etdi ki, aylıq yekunda yüksək nəticənin əldə olunmasının səbəblərindən biri də bölükdə tərbiyə işinin düzgün qurulmasıdır. Qarşılıqlı sağlam münasibətlərin formalaşdığı kollektivdə daha yüksək uğurların qazanılacağını inamla deyən bölük komandiri qarovul rəisi leytenant Əşrəf Həmzəyevin, bölüyün baş çavuşu kiçik gizir Pənah Namazovun, əsgərlər Rauf Qədimovun, Ural Ağabalıyevin və Elməddin Salayevin xidmətlərini müsbət xarakterizə etdi.

**baş leytenant T.Əlizadə**

# VƏZİFƏSİNİN ÖHDƏSİNDƏN LAYİQİNCƏ GƏLƏN ƏSGƏR



***Qarovul xidmətinin təşkili dedikdə, döyüş bayraqlarının, silahların, döyüş texnikasının, partlayıcı maddələrin, hərbi və dövlət obyektlərinin etibarlı mühafizəsi nəzərdə tutulur. Bütün bunlar isə öz növbəsində qarovul nəfərlərindən yüksək sayıqlıq, sarsılmaz qətiyyət və təşəbbüskarlıq göstərməyi tələb edir. Sadalanan keyfiyyətlər xidmət zamanı qəflətən qarşıya çıxa biləcək xidməti-döyüş tapşırıqlarının dər - hal yerinə yetirilməsində mühüm əhəmiyyətə malikdir.***

Bu xüsusiyyətləri özündə birləşdirən hərbi qulluqçularımızdan biri də əsgər Yunisli Mirelvin Telman oğludur.

O, 1993-cü ilin may ayının 15-də Yevlax rayonunda anadan olub. Orta təhsillidir. 2013-cü ilin aprel ayından Daxili Qoşunların sıralarındadır. Əsgər M.Yunisli xidmətdə müsbət xarakterizə olunur.

Qarovul rəisinin köməkçisi əsgər Sübhan Əliyev də onun bacarıqlı, öz vəzifələrini dərindən bilən, verilən tapşırıqlara məsuliyyətlə yanaşan əsgər olduğunu bildirdi.

Əsgər M.Yunislinin əsas vəzifəsi Döyüş bayrağının mühafizə və müdafiə etməkdən ibarətdir. O, xidməti vəzifələrindən danışdı və bildirdi ki, döyüş postunda tapşırığı yerinə yetirərkən xüsusilə ayıq-sayıq olmalı, fikrini yayındırmamalı, silahı həmişə doldurulmuş və atışa hazır vəziyyətdə saxlamalıdır. Əlavə etdi ki, əgər postda təhlükə qorxusu yaranarsa və yaxud qəflətən basqın olarsa, döyüş bayrağını təhlükəsiz yerə çıxarmalı və dərhal qarovul rəisini çağırmalıdır.

Bütün qarovul nəfərləri posta çıxmamışdan öncə qarovul rəisi və onun köməkçisi tərəfindən təlimatlandırılırlar. Həmçinin qarovul rəisinin köməkçisi tərəfindən xidməti vəzifələr diqqətə çatdırılır, sonra silahlar doldurulur. Qarovul nəfərləri hər 2 saatdan bir dəyişdirilir. Növbədən sonra qarovul məntəqəsinə qayıtdıqdan sonra isə silahlar təhlükəsizlik qaydalarına ciddi əməl edilməklə boşaldılır və təhvil verilir. Postdan çıxmış əsgər qrafikə uyğun olaraq, ayıq növbəni başa vurduqdan sonra istirahət edir.

Bilik və bacarığı ilə fərqlənən Mirelvin əsgər yoldaşlarının da xidmətə qarşı son dərəcə məsuliyyətli olduqlarını bildirdi. Yəni, qarovulun bütün şəxsi heyəti onlara etibar edilmiş dövlət əhəmiyyətli obyektləri, eləcə də döyüş bayrağını göz bəbəyi kimi qorumağı özünə şərəf borcu bilir.

O, şəxsi heyətin asudə vaxtlarının səmərəli təşkil olunması üçün hər bir şəraitin yaradıldığını diqqətə çatdırdı. Qeyd etdi ki, istirahət vaxtlarında stolüstü oyunlar oynanılır, mütaliə edilir və s.

Göründüyü kimi, qarovula cəlb olunmuş şəxsi heyət çox vacib, eyni zamanda məsuliyyətli vəzifələrinin öhdəsindən layiqincə gəlir. Bu da təbiidir, çünki onlar seçilmişlərdir.

**gizir X.Tağıyeva**

***VƏTƏN ŞEİRLƏRİ***

# TORPAĞINA CANIM QURBAN, AZƏRBAYCAN!

### AZƏRBAYCAN – DÜNYAM MƏNİM

**Müəllif: Məmməd Araz**

*Azərbaycan – qayalarda bitən bir çiçək,*
*Azərbaycan – çiçəklərin içində qaya.*
*Mənim könlüm bu torpağı vəsf eləyərək,*
*Azərbaycan dünyasından baxar dünyaya.*
*Azərbaycan – mayası nur, qayəsi nur ki…*
*Hər daşından alov dilli ox ola bilər.*
*"Azərbaycan!" – deyiləndə ayağa dur ki,*
*Füzulinin ürəyinə toxuna bilər.*
*Oğulları Kür gəzdirər biləklərində,*
*Oğulların göz atəşi gözəl əridir.*
*Azərbaycan səhərinin bəbəklərində*
*Qütb ulduzu, dan ulduzu gözəlləridir.*
*İllər olub – kürrələrdə dəmir olmuşuq,*
*Sərhədlərdə dayanmışıq küləkdən ayıq.*
*Od gölündə, buz çölündə gəmi olmuşuq,*
*Biz Bakının ilk səadət carçılarıyıq.*
*Min illərlə zülmətlərə yollar açıqdı,*
*Dalğalandı Sabirlərin ümman dünyası,*
*Azərbaycan qatarı da yollara çıxdı*
*Dağılanda Qoca Şərqin duman dünyası.*
*Azərbaycan – mayası nur, qayəsi nur ki…*
*Hər daşından alov dilli ox ola bilər.*
*"Azərbaycan!" deyiləndə ayağa dur ki,*
*Ana yurdun ürəyinə toxuna bilər.*

### AZƏRBAYCAN

**Müəllif: Bəxtiyar Vahabzadə**

*Azərbaycan, adın oddur, özün –*
*işıq, sözün- işıq.*
*Biz də sənin bu müqəddəs*
*torpağından boy atmışıq,*
*Sənsən bizim bu dünyada*
*məsləkimiz, amalımız,*
*Yolumuza işıq saçsın*
*ulduzumuz, hilalımız.*
*Nəfəsimiz – ulu Qorqud*
*dədəmizin öz nəfəsi,*
*Mahnımızda yaşar bizim*
*babaların addım səsi.*
*Bu torpaqda, bu diyarda*
*dünən vardıq, bu gün varıq,*
*Biz keçmişə güvəndikcə*
*gələcəyə addımlarıq.*
*Vətən bizsiz də keçinər,*
*keçinmərik biz Vətənsiz.*
*Bu məramla boy atmışıq*
*Çənlibellər üstündə biz.*
*Şəhidlərin qanı ilə*
*yoğrulubdur torpağımız,*
*Qəlbimizdə dalğalanır*
*öz üçrəngli bayrağımız.*
*Qardaşlıqdır şüarımız,*
*biz həmişə əl tutanıq,*
*Düşmən bizə əl uzatsa,*
*düşmənliyi unudanıq.*
*Könlümüzdə bir vahiddir*
*güneyimiz, quzeyimiz,*
*Vətən – bizim namusumuz,*
*biz Vətənik, Vətən də biz.*

### AZƏRBAYCAN

**Müəllif: Nəriman Həsənzadə**

*Od ürəkli, od nəfəsli diyarımsan*
*Ocağına canım qurban, Azərbaycan !*
*Əzilsən də, əyilməyən vüqarımsan*
*Bu çağına canım qurban, Azərbaycan !*
*Savaşlardan alnıaçıq çıxan zaman*
*Tarixlərə bağışladın neçə qurban.*
*Hər qonşuda bir parçası əsir qalan*
*Torpağına canım qurban, Azərbaycan !*
*Neçə gizli sərvət yatır qucağında,*
*Neçə ölkə od aparır ocağından.*
*Azadlığın al rəmzi var bayrağında*
*Bayrağına canım qurban, Azərbaycan !*
*Hər uğurun gələcəyə bir yol açır,*
*Hər dost elə xoş niyyətin işıq saçır.*
*Hər millətə, hər məzhəbə isti, açıq*
*Qucağına canım qurban, Azərbaycan!*
*Başım üstdə məğrur-məğrur dalğalanan*
*Bayrağına canım qurban , Azərbaycan!*
*Ruhuma büt , cismim üçün vətən olan*
*Torpağına canım qurban, Azərbaycan!*

***NÜMUNƏVİ XİDMƏT***

# "MƏQSƏD ŞƏXSİ HEYƏTİN DÖYÜŞ HAZIRLIĞININ YÜKSƏLDİLMƏSİDİR…"

***"Əsgər" qəzetinin hər buraxılışında Daxili Qoşunlarda nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular barədə məlumat verirk. Bu sayımızda da 16073 saylı hərbi hissədə nizam-intizamı ilə seçilən bir neçə hərbi qulluqçunu təqdim edirik.***

Baş leytenant Samir Məmmədov 1985-ci il sentyabrın 7-də Bakı şəhərində anadan olub. Xüsusi Dövlət Mühafizə Xidmətində müddətli hərbi xidmətini başa vurduqdan sonra 2006-cı ilin dekabr ayından qoşunların 67987 saylı hərbi hissənin dəstəsində müddətdən artıq hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib.



2008-2010-cu illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində təhsil aldıqdan sonra 16073 saylı hərbi hissənin dəstəsində qrup komandiri vəzifəsinə təyin olunub.

O, qrup komandiri kimi tabeçiliyində olan şəxsi heyətin döyüş hazırlığının yüksək olmasına cavabdehdir. Şəxsi heyətin fiziki keyfiyyətlərinin, eyni zamanda peşə vərdişlərinin artırılmasını daima diqqət mərkəzində saxlayır. Ərazinin relyefini nəzərə alaraq təlimləri real şəraitə uyğun keçirildiyini deyən baş leytenant S.Məmmədov məşğələlərdə şəxsi heyətin fəallıq göstərdiyini, eləcə də yarımqrup komandirlərinin xidmətini xüsusi olaraq vurğuladı: "Təlim məşqləri bitdikdən sonra günə yekun vurulur. Buraxılan nöqsanlar müzakirə olunur və növbəti dəfə bu çatışmazlıqların aradan qaldırılması istiqamətində səylərimizi gücləndiririk".



Üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələn dəstənin digər bir hərbi qulluqçusu baş çavuş Sübhan Buludovdur.

O, 2011-ci ilin dekabr ayından 16073 saylı hərbi hissənin dəstəsində yarımqrup komandiri kimi xidmət edir. Hərbi qulluqçuların nizam-intizamına ciddi nəzarət edir, onların döyüş hazırlığının yüksəldilməsində əlindən gələni əsirgəmir. Bu istiqamətdə əməli tədbirlərin görüldüyünü bildirən yarımqrup komandiri kollektivdə sağlam mühitin olduğunu söylədi. Qeyd etdi ki, şəxsi heyətin xarici görünüşü, sağlamlığı, ümumilikdə təlimə hazırlıqları müntəzəm olaraq yoxlanılır və bu barədə qrup komandirinə məruzə edilir. Müvafiq döyüş planına uyğun olaraq, şəxsi heyətlə davamlı şəkildə fiziki və atəş hazırlığı məşğələləri keçirilir. Məqsəd şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi, qarşıya qoyulmuş tapşırıqların keyfiyyətlə yerinə yetirilməsidir.



Əsgər Elnur Əlbəndov da hərbi hissənin nizam-intizami ilə seçilən hərbi qulluqçularındandır.

O, 1991-ci il aprelin 2-də Kəlbəcər rayonunda dünyaya göz açıb. Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin Mexaniki informasiya fakültəsində ali təhsil alıb. 2013-cü ilin iyul ayından Daxili Qoşunların 16073 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçməkdədir. Komandirləri tərəfindən davranışı, intizamı ilə yoldaşlarına nümunə kimi göstərilən əsgər E.Əlbəndov ona verilmiş tapşırıqların icrasında fəallıq nümayiş etdirir.

Fiziki və atəş hazırlığı "əla" qiymətləndirilən əsgər E.Əlbəndov arzu və istəklərini bizimlə bölüşdü: "Doğulduğum Kəlbəcər rayonu iki yaşım tamam olan gün (02.04.1993-red.) erməni qəsbkarları tərəfindən işğal olunmuşdur. Ən böyük arzum məhz 2 aprel tarixinin təqvimə Kəlbəcərin azad olunması günü kimi düşməsidir. Silahlı Qüvvələrimizin bugünki qüdrəti, gücü bu arzumun çin olmasına inamımı artırır".

**baş leytenant T.Əlizadə**

## BİZİM ŞÜAR:

**“MÖHKƏM HƏRBİ İNTİZAM, TƏLİMDƏ VƏ XİDMƏTDƏ YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA!”**

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də davam etmişdi. **1922-1923-cü** illərdə “yoldaş” Kirov tərəfindən Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, **1929-cu ildə** Əliheydər Qarayev tərəfindən Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, **1946-cı ildə** Mir Cəfər Bağırov tərəfindən 40 kv.km-lik meşə sahəsi, **1969-cu ildə** Vəli Axundov tərəfindən Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi, **1984-cü ildə** isə Kamran Bağırov tərəfindən Qazax rayonundan torpaq sahəsi ermənilərə verilmişdir.

**1988-ci ildə** Azərbaycanın ərazisi 86,6 min kv.km idi.

**1988-1993-cü illərdə** aşağıdakı ərazilər işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

## MÜDRİK KƏLAMLAR...

**Ağıllı adam öz ağlından, müdrik adam isə başqalarının da ağlından istifadə edər.**

**Vicdanla çalışmaq bizi üç şeydən qurtarar: əziyyətdən, pis vərdişlərdən, yoxsulluqdan.**

**Birinci dəfə bağışlamaq müdriklik, ikinci dəfə bağışlamaq rəhmlilik, üçüncü dəfə bağışlamaq axmaqlıqdır.**

**Bir günah işlədərkən onun kiçikliyinə deyil, onu qadağan edənin böyüklüyünə bax.**

**Nə üçün insanlar çoxluğun ardınca gedərlər? Ona görə ki, çoxluq haqlıdır? Xeyr, ona görə ki, çoxluq güclüdür.**

**Bəzi insanlar söyləyəcəkləri çox söz olduğu halda, susarlar. Çünki anlayanları yoxdur.**

**Danışanlar bilməz, bilənlər danışmaz. Bu, heç vaxt dəyişmir.**

**Sirrini heç kimə söyləmə. Güzgüyə baxarkən gördüyün insan etibar edəcəyin yeganə insandır.**

**Uğur çox zaman cəsarətli insanlara xas bir şeydir, nadir hallarda çəkinən və nəticələrdən qorxanlar uğur qazana bilər.**

**Hər yeni doğulmuş körpə yeni bir dünyadır.**

**Çox dil bilmək bir qıfıla bir neçə açarla yaxınlaşmaq imkanıdır.**

**Ən zəif cəhətimiz odur ki, müzakirə etməyi daha çox sevirik, nəinki iş görməyi.**

**Dünyanın ən yoxsul insanı, puldan başqa heç bir şeyi olmayandır.**

**Hər bir adam öz dilinin arxasında gizlənir.**

**Nadanlıqdan betər dərd yoxdur.**

# İNSAN HÜQUQLARI VƏ AZADLIQLARININ TƏMİN EDİLMƏSİ DÖVLƏTİN ALİ MƏQSƏDİDİR

**1995-ci ildə Ümummilli Liderimiz Heydər Əliyevin müəllifi olduğu ilk milli Konstitusiyamızın qəbul olunması Azərbaycan Respublikasında siyasi sistemin müasirləşdirilməsi və demokratik institutların formalaşdırılması üçün zəmin yaratmışdır.**

*XX əsrin ortalarından insan hüquqlarının beynəlxalq səviyyədə inkişafı və təşviqi mərhələsi başlamışdır. 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, habelə sonrakı dövrlərdə “Mülki və Siyasi hüquqlar haqqında” və “İqtisadi, sosial və mədəni hüquqlar haqqında” 1966-cı il tarixli Beynəlxalq Paktları qəbul etmişdir. Bundan əlavə, 1976-cı ildə “Mülki və siyasi hüquqlar haqqında” Pakta dair Birinci Fakültativ Protokol, 1989-cu ildə isə Paktın ölüm cəzasının ləğvinə yönəlmiş İkinci Fakültativ Protokolu qəbul olunmuşdur. Həmin fundamental sənədlər “İnsan hüquqları haqqında Beynəlxalq Bill” adlanaraq bu sahədə beynəlxalq standartların əsasını təşkil etmişdir.*

Ümumdünya Bəyannaməsinin məqsəd və məramları, həmçinin Avropa Şurası tərəfindən qəbul olunmuş “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya”da (1950-ci il), “Avropa Mədəniyyət Konvensiyası”nda (1954-cü il), “Terrorizmin qarşısının alınması haqqında Konvensiya”da (1977-ci il), “Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası”nda (1995-ci il), “Avropa Sosial Xartiyası”nda (1996-cı il) və ATƏT səviyyəsində imzalanmış 1975-ci il “Helsinki yekun Aktı”nda, 1990-cı il Yeni Avropa üçün “Paris Xartiyası”nda, digər beynəlxalq sənədlərdə özünün gələcək inkişafını tapmışdır.

Azərbaycan Respublikasında 1995-ci ildə Ümummilli Liderimiz Heydər Əliyevin müəllifi olduğu və insan hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edən ilk milli Konstitusiyamızın qəbul olunması siyasi sistemin müasirləşdirilməsi və demokratik institutların formalaşdırılması üçün zəmin yaratmışdır. 2002-ci və 2009-cu illərdə referendum yolu ilə Konstitusiyaya bir sıra mühüm əlavə və dəyişikliklərin edilməsi tam mütərəqqi xarakter daşımaqla, insan və vətəndaş hüquqlarının və azadlıqlarının daha səmərəli qorunmasına, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinə, demokratiyanın genişlənməsinə və inkişafına yönəlmişdir.

Dövlətimizin ali məqsədinə nail olunmasında, müvafiq hüquqi mexanizmlərin yaradılmasında, o cümlədən mükəmməl qanunvericilik bazasının formalaşdırılmasında Azərbaycan Respublikası Prezidentinin 1998-ci il fevralın 22-də imzaladığı “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərmanı xüsusi əhəmiyyətə malikdir. Həmin dövrdə Ulu Öndərimiz tərəfindən təsdiq edilmiş “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” bu sahədə ilk fundamental sənəd olmuşdur.

Təsadüfi deyil ki, ilk Dövlət Proqramının qəbul olunduğu gün - iyunun 18-i ölkə başçısının 2007-ci il tarixli Sərəncamına əsasən Azərbaycanda insan hüquqları günü elan edilmişdir. Maraqlı və mahiyyət etibarilə böyük rəmzi məna daşıyan məqam odur ki, məhz həmin tarixdə BMT-nin İnsan Hüquqları Şurası tərəfindən “İnstitusional quruculuq paketi” qəbul edilmiş və bu paket çərçivəsində BMT-yə üzv olan dövlətlərdə insan hüquqları sahəsində vəziyyəti qiymətləndirməyə imkan yaradan yeni universal dövri icmal mexanizmi təsis edilmişdir.

Bu istiqamətdə növbəti addımlardan biri də ölkə Prezidenti tərəfindən 27 dekabr 2011-ci il tarixdə “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın qəbul olunmasıdır.

İnsanların ayrılmaz, təbii hüquqlara malik olması, bu hüquqların təminatı ideyaları inkişaf etdikcə bir sıra mükəmməl sənədlərin, o cümlədən beynəlxalq miqyasda həmıləqa qəbul olunmuş prinsip və konvension normaların formalaşdırılmasının labüdlüyü gündəmə gəlmiş, İkinci Dünya müharibəsinin bəşəriyyətə vurduğu ağır nəticələr daha mükəmməl müdafiə mexanizmlərinin işlənib hazırlanması üzrə dünyanın mütərəqqi qüvvələrini ciddi düşünməyə vadar etmişdir.

Respublikamızda gedən demokratikləşmə prosesi, ictimai həyatın bütün sahələrində aparılan uğurlu islahatlar, beynəlxalq miqyasda əldə olunmuş nailiyyətlər insan hüquqları kimi həssas və daim konseptual yanaşmaların müəyyən olunmasını tələb edən sahədə tənzimləyici milli mexanizmlərin daha da təkmilləşdirilməsi və ardıcıl tədbirlərin həyata keçirilməsini vacib edir.

**Belə ki, 6 fəsil və 75 bənddən ibarət olan Proqramda aşağıdakı istiqamətlər üzrə konkret qanunverici və praktiki tədbirlər müəyyən olunmuş, onların izahı verilmişdir:**

*- normativ-hüquqi bazanın təkmilləşdirilməsi;*

*- əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi;*

*- dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi;*

*- insan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə tədbirləri;*

*- insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq;*

*- proqramın həyata keçirilməsinin əlaqələndirilməsi, monitorinq və qiymətləndirilməsi.*

Sənəddə qadınların, uşaqların, həbs yerlərində saxlanılan şəxslərin (müvafiq qanun layihəsi Milli Məclisin yaz sessiyasında ikinci oxunuşdan keçmişdir), miqrantların, xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarının daha etibarlı təmin olunması, habelə hüquqi şəxslərin cinayət məsuliyyətinin müəyyən edilməsi, diffamasiyaya görə cinayət məsuliyyətinin aradan qaldırılması məqsədilə və digər sahələrdə qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində işlərin görülməsi planlaşdırılır. Və bu zaman hüquqi aktların layihələri hazırlanarkən ölkəmizin Konstitusiyasında, tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutularaq onların beynəlxalq hüquqi sənədlərə uyğunluğuna xüsusi diqqət yetirilməsi nəzərdə tutulur.

Milli Fəaliyyət Proqramında əhalinin müxtəlif, o cümlədən həssas qruplarına aid olan şəxslərin - qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, qadınlar, uşaqlar, ahıllar, əlillər və başqalarının hüquqlarının təmin edilməsində səmərəliliyin artırılması məqsədilə fəaliyyət istiqamətləri müəyyən olunur.

Proqrama uyğun olaraq dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi, korrupsiya ilə mübarizənin gücləndirilməsi potensialının artırılması və bu sahədə institusional islahatların həyata keçirilməsi, əhaliyə elektron xidmətlərin göstərilməsinin təşkil edilməsi, hakimlərin və hakimliyə namizədlərin, hüquq mühafizə orqanları əməkdaşlarının və vəkillərin tədrisində insan hüquqları sahəsində beynəlxalq konvensiyalarla bağlı mövzuların geniş istifadə olunması, məhkəmə qərarlarının vaxtında və dəqiq icra edilməsi üçün icra işinin səmərəliliyinin yüksəldilməsi, habelə vəkillik institutunun gücləndirilməsi üzrə tədbirlərin davam etdirilməsi məsələləri mühüm istiqamətlər sırasındadır.

Milli Fəaliyyət Proqramında insan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə işlərinin həyata keçirilməsinə xüsusi diqqət yetirilərək əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə ixtisaslaşmış beynəlxalq elmi-tədqiqat və tədris müəssisələri ilə əməkdaşlığın təkmilləşdirilməsi, bu sahədə beynəlxalq sənədlərin, xüsusilə də İnsan Hüquqlarına dair Avropa Konvensiyasının, işgəncələr əleyhinə Konvensiyanın dövlət qulluqçuları, hüquq mühafizə orqanlarının əməkdaşları tərəfindən öyrənilməsinin təmin edilməsi nəzərdə tutulmuşdur.

Proqramda BMT-nin müxtəlif təsisatları, o cümlədən insan hüquqları sahəsində ixtisaslaşan qurumları, Qaçqınlar üzrə Ali Komissarlıq, UNESCO, UNİCEF, habelə Avropa Şurası, Avropa İttifaqı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər regional təşkilatlarla birgə layihələrin həyata keçirilməsinin zəruriliyi vurğulanır.

Danılmaz həqiqətdir ki, dövlət orqanlarının səmərəli fəaliyyəti, qarşıda duran vəzifələrin və funksiyaların uğurla yerinə yetirilməsi, ilk növbədə yüksək ixtisaslı, müasir dünyagörüşünə malik, ədalətli, prinsipial və bacarıqlı kadrların sayəsində mümkündür. Dövlət məmurları insan hüquqlarının səmərəli və etibarlı təmin olunması kimi ümumdövlət maraqlarını rəhbər tutmağa borcludurlar. Hər bir məmur öncə insan hüquqlarının təmin olunmasının onun ümdə vəzifəsi olduğunu dərk etməlidir.

**Beləliklə, tam əsasla vurğulaya bilərik ki, “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” Ulu Öndərimiz tərəfindən təməli qoyulmuş insan hüquqları sahəsində strategiyanın məntiqi davamı və dövlətin növbəti siyasi iradəsi olmaqla, insan və vətəndaş hüquqlarının hərtərəfli həyata keçirilməsinə, onların icra mexanizmlərinin təkmilləşdirilməsinə real zəmanət verir.**

## ƏSGƏR ÇƏKMƏLƏRİNƏ BİRLƏŞDİRİLƏN MİNA DETEKTORU HAZIRLANIB



Kolumbiyanın Lemur Studio şirkəti təhlükəli ərazilərdə xidmət edən hərbçilər üçün minatür ölçülü mina detektoru hazırlayıb. Məlumata görə, "SaveOne-Life" adı verilən detektor ayaqqabı dabanına uyğunlaşdırılıb. Cihaz yaxın məsafədə torpağın altındakı minaları və böyük metal parçalarını müəyyən edə bilir. “SaveOneLife” sistemi saat ölçülü cihazda minanın yerini göstərir və xəbərdarlıq siqnalı verir.

## Allah rəhmət eləsin

Ali Hərbi Məktəbin şəxsi heyəti polkovnik-leytenant Rafael Məmmədova **qayınatasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16075 saylı hərbi hissənin şəxsi heyəti baş gizir Nazim Abbasova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: mayor R.Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-21

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000